UOT-811.512.162
Səhifə: 51-55
https://doi.org/10.59849/2663-8967.2026.2.51

Sima Quliyeva
AMEA Nəsimi adına Dilçilik İnstitutu,
filologiya üzrə fəlsəfə doktoru, dosent
sima.guliyeva51@gmail.com

TEXNİKİ TERMİNLƏRİN YARANMASINDA METAFORİK NOMİNASİYA

XÜLASƏ

Məqalədə müasir texniki terminologiyanın inkişafında metaforik nominasiyanın rolu və texniki metafor-terminlərin formalaşma xüsusiyyətləri araşdırılır. Elmi-texniki tərəqqi nəticəsində meydana çıxan yeni anlayışların adlandırılmasında dilin mövcud leksik-semantik imkanlarından istifadə mexanizmləri nəzərdən keçirilir. Tədqiqatda metaforik nominasiya yalnız dil vahidlərinin məcazi mənada işlənməsi kimi deyil, həm də yeni anlayışların insan təfəkküründə konseptuallaşdırılmasını təmin edən koqnitiv mexanizm kimi səciyyələndirilir. Texniki metafor-terminlər xarici əlamətlərin və funksional xüsusiyyətlərin oxşarlığı əsasında qruplaşdırılaraq təhlil edilir. Müxtəlif texniki sahələrə aid nümunələr əsasında müəyyənləşdirilir ki, qurğuların, mexanizmlərin və onların hissələrinin adlandırılmasında forma, quruluş, funksional təyinat və fəaliyyət xüsusiyyətləri mühüm nominativ motivlər kimi çıxış edir. Araşdırma göstərir ki, metaforik nominasiya texniki terminologiyanın zənginləşməsinə, yeni anlayışların daha asan qavranılmasına və müxtəlif bilik sahələri arasında terminoloji-semantik əlaqələrin yaranmasına şərait yaradır. Bu baxımdan texniki metafor-terminlərin öyrənilməsi termin yaradıcılığının semantik və koqnitiv əsaslarının müəyyənləşdirilməsi baxımından əhəmiyyətlidir.

Açar sözlər: texniki terminologiya, metaforik nominasiya, metafor-termin, termin yaradıcılığı, funksional oxşarlıq.

Giriş: Müasir elmi-texniki tərəqqinin sürətli tempi texnikanın müxtəlif istiqamətlərində yeni anlayışların, proseslərin, qurğu və avadanlıqların, texnoloji üsul və vasitələrin meydana çıxmasını şərtləndirir. Avtomatlaşdırma və robotlaşdırma, informasiya-kommunikasiya texnologiyalarının inkişafı, energetika, elektronika, maşınqayırma, nəqliyyat, rabitə və digər texniki sahələrdə əldə olunan yeniliklər müvafiq anlayışların dildə dəqiq və sistemli şəkildə ifadə olunmasını zəruri edir. Bu baxımdan texniki terminologiya elmi-texniki yeniliklərin dil vasitəsilə ifadəsini təmin edən əsas sahələrdən biri kimi xüsusi əhəmiyyət qazanır.

Texniki sahələrin inkişafı nəticəsində yaranan hər bir yeni anlayışın adlandırılması terminoloji sistemin daim yenilənməsinə səbəb olur. Yeni maşın, mexanizm, cihaz, material, texnoloji proses və istehsal üsullarının meydana gəlməsi onların terminoloji baxımdan adlandırılmasını tələb edir. Məsələn, elektronika, energetika, telekommunikasiya, avtomatika, robototexnikada və s. yeni anlayışları ifadə edən terminlər geniş istifadə dairəsinə daxil olmuşdur.

Texniki sahələrdə meydana çıxan yeni anlayışların dil vasitəsilə adlandırılması zamanı mövcud leksik vahidlərdən geniş istifadə olunur. Bu prosesdə ümumişlək sözlərin ifadə etdiyi ilkin mənadan çıxış edilərək texniki obyektin, qurğunun, prosesin və ya funksiyanın müəyyən əlaməti əsas götürülür və həmin söz yeni anlayışı ifadə edən terminoloji məna qazanır. Adlandırma zamanı obyektin forması, funksiyası, quruluşu, hərəkəti, yerləşmə xüsusiyyəti və ya digər xarakterik cəhəti ilə artıq dildə mövcud olan anlayış arasında assosiativ əlaqə yaradılır. Nəticədə ümumişlək leksik vahid xüsusi sahə daxilində yeni semantik məzmun əldə edərək texniki termin kimi sabitləşir.

Texniki terminologiyanın zənginləşməsində bu cür semantik keçidlər, xüsusilə metaforik nominasiya mühüm rol oynayır. Metaforik nominasiya zamanı yeni texniki anlayışın

adlandırılması onun müəyyən xüsusiyyətinin insanın gündəlik təcrübəsində tanış olan obyekt, hadisə və ya hərəkətlə əlaqələndirilməsi əsasında baş verir. Bu yolla dilin mövcud söz ehtiyatından istifadə etməklə yeni terminoloji vahidlər yaradılır və texniki anlayışların ifadəsi üçün əlavə nominativ imkanlar formalaşır. Texniki terminologiyada müxtəlif qurğu və mexanizmlərin forması, funksiyası və fəaliyyəti ilə bağlı yaranan bir sıra terminlərin məhz belə semantik əsasda formalaşması müşahidə olunur. Metaforik nominasiya nəticəsində ümumişlək sözün ilkin semantikası tamamilə aradan qalxmır, lakin həmin söz konkret texniki sahədə yeni və ixtisaslaşmış məna qazanır. Belə terminlərin formalaşması texniki anlayışların daha yığcam və obrazlı şəkildə adlandırılmasına imkan verməklə yanaşı, terminoloji sistemin dilin daxili semantik imkanları hesabına zənginləşməsinə də şərait yaradır. Buna görə metaforik nominasiya texniki termin yaradıcılığının məhsuldar üsullarından biri kimi səciyyələndirilə bilər.

XXI əsrdə elmi biliklərin sürətli inkişafı elmi diskursa və onun formalaşma mexanizmlərinə münasibətin dəyişməsinə səbəb olmuşdur. Müasir dilçilikdə metafora yalnız bədii ifadə vasitəsi kimi deyil, elmi idrakın və konseptuallaşdırmanın mühüm mexanizmlərindən biri kimi qiymətləndirilir (C.Lakoff, M. Conson, T.Bekman və s.). C. Lakoffun fikrincə, metafor-terminlərin meydana çıxması qaçılmazdır, çünki metaforalardan istifadə mücərrəd anlayışların və mürəkkəb situasiyaların daha asan qavranılmasına kömək edir. Metafor-termin yalnız dil hadisəsi deyil, həm də konseptual hadisə kimi idrak fəaliyyətinin təşkili üsuludur [2, s. 25]. Çünki onun formalaşması insanın gerçəkliyi qavrama və dərk etmə təcrübəsi ilə bilavasitə bağlıdır. İnsan yeni və mürəkkəb anlayışları çox zaman əvvəlki bilikləri, təcrübəsi və mövcud konseptual təsəvvürləri əsasında mənalandırır. Bu baxımdan metaforik terminlərin yaranması təfəkkür prosesində müxtəlif anlayışlar arasında əlaqələrin qurulması və yeni biliklərin artıq mövcud olan konseptual modellər əsasında mənimsənilməsi ilə səciyyələnir.

Yeni texniki obyekt və ya hadisənin müəyyən xüsusiyyətlərinin artıq məlum olan anlayışlarla əlaqələndirilməsi nəticəsində ilkin assosiasiyalar yaranır, həmin əlaqələr təfəkkürdə dərk edilir və son nəticədə dil vasitəsilə ifadə olunur. Bu baxımdan metaforlaşma yalnız hazır sözün bir anlayışdan digərinə mexaniki şəkildə köçürülməsi deyil. "Metaforlaşma prosesində yeni mənanın yaranması həmişə birbaşa inikasla getmir. Köçürmə dərhal baş vermir. Əşya, hadisə, predmetlər şüurda təsəvvür olunur, müqayisə və qiymətləndirmələr aparılır. Metaforun əmələ gətirdiyi modellər mürəkkəbdir. Yeni dil vasitəsi, reprodiktiv-kombinator vahidlər müəyyən model əsasında formalaşır" [1, s. 17].

Metafor-terminlərin yaranma motivləri eyni xarakter daşımır və onların formalaşmasında əsas götürülən oxşarlığın növünə görə müxtəlif qruplar müəyyənləşdirmək mümkündür. Bu baxımdan texniki terminologiyada metaforik nominasiya əsasında yaranan terminləri onların adlandırma motivinə və əsaslandığı oxşarlıq münasibətinə görə qruplaşdırmaq məqsədəuyğundur:

1. Xarici əlamətlərin oxşarlığına əsaslanan metafor terminlər. 2. Funksiyaların oxşarlığına əsaslanan metafor terminlər.

Xarici əlamətlərin oxşarlığına əsaslanan metafor terminlər. Bu tip metaforik adlandırmada yeni texniki obyektin müəyyən vizual əlaməti insanın gündəlik təcrübəsində tanınan başqa bir obyektin xarakterik cəhəti ilə əlaqələndirilir. Beləliklə, əvvəlcədən mövcud olan söz və ya söz birləşməsi yeni obyektin zahiri xüsusiyyətini ifadə etmək üçün terminoloji məna qazanır. Burada əsas nominasiya motivini funksional deyil, ilk növbədə, forma, görünüş, quruluş, ölçü və yerləşmə baxımından müşahidə olunan oxşarlıq təşkil edir. Məsələn, texniki terminologiyada *"ayaq", "baş", "boyun", "qulaq", "diş", "qanad", "burun", "gövdə", "qol"* kimi ümumişlək sözlərin müxtəlif texniki anlayışların adlandırılmasında iştirakı müşahidə olunur. Bu sözlər ilkin nominativ mənalarından çıxış edərək texniki obyektin müəyyən hissəsinin insan bədəninin və ya gündəlik həyatda tanınan başqa obyektin müvafiq hissəsinə zahiri oxşarlığı əsasında terminləşə bilir. Məsələn, *"dişli çarx"* birləşməsində *diş* komponenti çarxın çevrəsində yerləşən və formasına görə dişi xatırladan çıxıntıları ifadə edir. Eyni şəkildə, *"kabel başlığı", "boru boynu", "qurğunun gövdəsi", "mexanizmin qolu"* kimi terminoloji birləşmələrdə də ümumişlək sözlərin müəyyən texniki hissələrin formasını və ya yerləşmə xüsusiyyətini adlandırmaq üçün istifadə edilməsi nəzərə çarpır.

Bu tip metaforik nominasiya texniki obyektlərin quruluşunu insan üçün daha tanış və asan qavranılan obrazlar vasitəsilə ifadə etməyə imkan verir. Məsələn, *"kranın qolu", "çarx qolu", "sürgü qolu", "borunun ağzı"* kimi ifadələrdə komponentlərin seçilməsi həmin hissələrin insan bədəninin və ya gündəlik həyatda tanınan obyektlərin müvafiq hissələri ilə zahiri oxşarlığına əsaslanır. Bu zaman metaforik köçürmə nəticəsində ümumişlək sözün semantik məzmunu texniki sahəyə uyğunlaşdırılır və həmin vahid müəyyən obyektin konkret hissəsini ifadə edən terminoloji funksiya qazanır.

Terminlərin yaranmasında *funksional oxşarlıq*, yəni müxtəlif obyekt və proseslərin eyni və ya yaxın funksiyanı yerinə yetirməsi də mühüm nominasiya əsası kimi çıxış edir. Bu halda yeni texniki obyektin adı onun xarici görünüşünə görə deyil, yerinə yetirdiyi işin, funksiyanın və ya prosesdəki rolun əvvəllər məlum olan obyektin funksiyası ilə oxşarlığı əsasında müəyyənləşir. Başqa sözlə, müxtəlif təbiətə və quruluşa malik iki obyekt arasında onların yerinə yetirdiyi funksiya əsasında assosiativ əlaqə yaradılır və mövcud leksik vahid yeni texniki məna qazanır. Bu tip metaforik köçürmədə insanın gündəlik fəaliyyəti və praktik təcrübəsi mühüm mənbə rolunu oynayır. İnsan fəaliyyətində müəyyən işi yerinə yetirən obyektin funksiyası sonradan texniki qurğu və mexanizmlərin analoji funksiyasını ifadə etmək üçün əsas götürülə bilir. Məsələn, *"süzgəc"* termini maye və ya qaz tərkibindəki müəyyən hissəcikləri ayırmaq funksiyasına görə yaranmışdır. Burada əsas nominasiya motivi obyektin zahiri görünüşü deyil, *ayırma* və *təmizləmə* funksiyasıdır. Eyni prinsip *"filtr", "klapan", "tutacaq", "kilid", "qoruyucu"* kimi texniki anlayışların semantik inkişafında da müşahidə edilə bilər.

Funksiyaların oxşarlığına əsaslanan metafor terminlər. Funksional metaforaya *"yaddaş", "beyin", "sinir", "ürək"* kimi terminləşmiş vahidləri də nümunə göstərmək mümkündür. Məsələn, texniki və informasiya texnologiyaları sahəsində *"kompüter yaddaşı"* ifadəsində *yaddaş* insanın məlumatı saxlamaq və sonradan xatırlamaq funksiyasından çıxış edərək informasiyanın saxlanıldığı texniki sistemi ifadə edir. "Yaddaş – informasiyanı saxlamağa və bərpa etməyə imkan verən mikrosxem. Ən geniş anlamda yaddaş maqnit diskləri, yaxud maqnit lentləri kimi xarici sistemlərə aid olur" [s.489]. *"Kompüterin beyni"* və ya texniki sahədə prosessorun "beyin"lə əlaqələndirilməsi isə informasiyanın emalı və idarə olunması funksiyasındakı oxşarlıqla izah olunur. Eyni şəkildə, *"sistemin ürəyi"* ifadəsində *ürək* komponenti sistemin fəaliyyətinin əsasını təşkil edən, digər hissələrin işini təmin edən komponenti bildirmək üçün funksional assosiasiya yaradır.

Telekommunikasiya və elektronika sahəsində işlənən *"şəbəkənin onurğası"* ifadəsi də funksional metaforaya nümunədir. İnsan orqanizmində onurğa bədənin əsas dayaq və əlaqələndirici strukturlarından biri olduğu kimi, texniki sistemdə şəbəkənin əsas məlumat ötürmə hissəsini təşkil edir. Burada adlandırmanın əsasında xarici oxşarlıqdan daha çox *dayaq* və *əsas əlaqələndirici* funksiya dayanır.

"*Virus*" sözü müxtəlif elm və texnologiya sahələri arasında metaforik köçürmənin səciyyəvi nümunələrindən biri kimi qiymətləndirilə bilər. Termin əvvəlcə biologiya və tibb sahəsində müəyyən anlayışı ifadə etdiyi halda, sonradan informasiya texnologiyaları terminologiyasına keçərək yeni məna qazanmışdır. Bioloji termin kimi *virus* yalnız canlı hüceyrələrin daxilində çoxala bilən hüceyrəsiz infeksion agenti bildirir. İnformasiya texnologiyalarında isə bu söz kompüter sistemlərinə daxil olaraq özünü çoxalda, digər fayl və proqramlara yayıla və sistemin normal fəaliyyətini poza bilən zərərli proqram təminatını ifadə edir. Bu iki məna arasında əsas əlaqə onların funksional xüsusiyyətlərindəki oxşarlıqdır. Bioloji virusun canlı orqanizmə daxil olaraq çoxalması və yayılması ilə kompüter virusunun informasiya sisteminə daxil olaraq öz surətlərini yaratması və digər fayllara yayılması arasında assosiativ paralellik qurulmuşdur. Beləliklə, bioloji anlayışa aid olan termin yeni texnoloji obyektin fəaliyyət xüsusiyyətlərinin ifadəsi üçün istifadə edilmiş və nəticədə informasiya texnologiyaları sahəsində terminoloji məna qazanmışdır. Bu nümunə göstərir ki, metaforik köçürmə zamanı əsas götürülən əlamət yalnız obyektin xarici görünüşü deyil, onun fəaliyyət xarakteri, yayılma və təsir mexanizmi də ola bilər.

"Ağıllı telefon" birləşməsi texniki terminologiyada insan fəaliyyətinə məxsus xüsusiyyətin texniki qurğuya köçürülməsi əsasında formalaşan metafor-termindir. "*Ağıllı*" sözü ilkin mənada insanın düşünmə, qavrama, qərarvermə və müəyyən məsələləri həll etmə qabiliyyətini ifadə edir. "Ağıllı telefon" terminində isə bu xüsusiyyət texniki qurğuya aid edilərək onun ənənəvi telefonlardan fərqli olaraq geniş funksional imkanlara malik olduğunu bildirir. Telefonun informasiyanı emal etməsi, müxtəlif proqramları icra etməsi, internetə çıxış yaratması, istifadəçi əmrlərinə uyğun fəaliyyət göstərməsi və bir sıra prosesləri avtomatlaşdırması onun insanın intellektual fəaliyyətini xatırladan funksiyaları ilə əlaqələndirilir. Burada metaforik köçürmənin əsasında xarici oxşarlıq deyil, funksional və konseptual oxşarlıq dayanır. Texniki qurğunun müəyyən informasiyanı qəbul etməsi, emal etməsi və istifadəçinin verdiyi əmrlərə uyğun əməliyyatlar həyata keçirməsi insanın intellektual fəaliyyətinə assosiativ şəkildə yaxınlaşdırılır.

Aparılan təhlil göstərir ki, texniki terminologiyanın inkişafı yalnız yeni sözlərin yaranması ilə deyil, mövcud dil vahidlərinin yeni elmi-texniki məzmun qazanması ilə də səciyyələnir. Xüsusilə metaforik nominasiya bu prosesdə dilin hazır leksik resurslarının yeni anlayışların ifadəsinə cəlb olunmasına imkan verən məhsuldar mexanizmlərdən biridir. Metaforlaşma nəticəsində müxtəlif sahələrə məxsus anlayışlar arasında yeni semantik əlaqələr yaranır və bu əlaqələr texniki terminlərin formalaşmasına zəmin yaradır.

Təhlil olunan nümunələr əsasında demək olar ki, texniki metafor-terminlərin yaranmasında əsas nominativ motivlərdən biri obyektlərin xarici xüsusiyyətləri, digəri isə onların funksional xüsusiyyətləri ilə bağlıdır. Birinci halda texniki qurğunun və ya onun hissəsinin forması, quruluşu və görünüşü adlandırma üçün əsas olduğu halda, ikinci halda funksional təyinat, fəaliyyət xarakteri və sistem daxilində yerinə yetirilən rol ön plana çıxır. Bununla yanaşı, ayrı-ayrı nümunələrdə bu əlamətlərin bir-birindən tam təcrid olunmadığı, eyni terminoloji vahidin yaranmasında bir neçə assosiativ xüsusiyyətin iştirak edə bildiyi də nəzərə alınmalıdır.

Nəticə: Metafor-terminlərin formalaşması həmçinin müxtəlif elm sahələri arasında terminoloji qarşılıqlı əlaqələrin mövcudluğunu göstərir. Biologiya, tibb və gündəlik həyat leksikasından informasiya texnologiyaları və digər texniki sahələrə keçən vahidlər yeni sahənin anlayışlarını ifadə etməklə yanaşı, onların mahiyyətinin konseptual şəkildə qavranılmasına da xidmət edir. Bu baxımdan metaforik terminlər müxtəlif bilik sahələri arasında mənalararası əlaqə yaradan dil vahidləri kimi də xarakterizə oluna bilər.

Beləliklə, texniki metafor-terminlərin araşdırılması termin yaradıcılığının yalnız struktur və leksik aspektlərini deyil, həm də onun koqnitiv əsaslarını müəyyənləşdirməyə imkan verir. Müasir texnikanın sürətli inkişafı fonunda yeni anlayışların meydana gəlməsi davam etdikcə, onların adlandırılmasında metaforik modellərin də tətbiq imkanları genişlənəcək.

Ədəbiyyat siyahısı

1. Calallı İ. İnformatika terminlərinin izahlı lüğəti. Bakı, 2017.
2. Orucova D. Müasir ingilis dilində dini metaforaların linqvokulturoloji perspektivləri. Fil.ü.f.d. dissert., Naxçıvan, 2024.
3. Lakoff G. Johnson M. Metaphors We Live By. Chicago: University of Chicago Press, 1980.

Сима Гулиева

Метафорическая номинация в образовании технических терминов

Резюме

В статье исследуются роль метафорической номинации в развитии современной технической терминологии и особенности формирования технических метафор-терминов. Рассматриваются механизмы использования существующих лексико-семантических возможностей языка при наименовании новых понятий, возникающих в результате научно-технического прогресса. В исследовании метафорическая номинация характеризуется не только как употребление языковых единиц в переносном значении, но и как когнитивный механизм, обеспечивающий концептуализацию новых понятий в человеческом мышлении. Технические метафоры-термины группируются и анализируются на основе сходства внешних признаков и функциональных характеристик. На материале примеров из различных технических областей устанавливается, что при наименовании устройств, механизмов и их частей форма, структура, функциональное назначение и особенности функционирования выступают в качестве важных номинативных мотивов. Исследование показывает, что метафорическая номинация способствует обогащению технической терминологии, более доступному восприятию новых понятий и формированию терминологически-семантических связей между различными областями знаний. В этом контексте изучение технических метафор-терминов имеет важное значение для определения семантических и когнитивных основ терминологического образования.

Ключевые слова: *техническая терминология, метафорическая номинация, метафора-термин, терминологическое образование, функциональное сходство.*

Sima Guliyeva

Metaphorical nomination in the formation of technical terms

Abstract

The article examines the role of metaphorical nomination in the development of modern technical terminology and the formation features of technical metaphor-terms. It considers the mechanisms of using the existing lexical and semantic resources of the language in naming new concepts that emerge as a result of scientific and technological progress. In the study, metaphorical nomination is characterized not only as the use of linguistic units in a figurative meaning, but also as a cognitive mechanism that facilitates the conceptualization of new concepts in human cognition. Technical metaphor-terms are grouped and analyzed on the basis of similarities in external features and functional characteristics. The analysis of examples from various technical fields demonstrates that form, structure, functional purpose, and functional characteristics serve as important nominative motivations in naming devices, mechanisms, and their components. The study shows that metaphorical nomination contributes to the enrichment of technical terminology, facilitates the perception of new concepts, and promotes the formation of terminological-semantic relations between different fields of knowledge. In this regard, the study of technical metaphor-terms is significant for identifying the semantic and cognitive foundations of terminology formation.

Keywords: *technical terminology, metaphorical nomination, metaphor-term, terminology formation, functional similarity.*

Çapa tövsiyə edən: ***AMEA Nəsimi adına Dilçilik İnstitutu***

Rəyçilər: ***dosent N.Hüseynova***
fil.ü.f.d.L.Həsənova